# *Əli Tudənin qiymətli fikirləri*

-------------------------------------------------------------

Nə qədər döyüş var, mübarizə var,
Bayrağım Vətəndir, silahım qələm.

***

Mənə "əyil" dedilər,
Qımışdım, əyilmədim.
Başıma yumruq yağdı,
Tövşüdüm, döyülmədim.

Sanki bir zirvəymişəm,
Bir insan deyilmişəm.
Mən yalnız torpağımı
Öpəndə əyilmişəm.

***

Nə çoxdur arzunun az-az bitəni,
İnsana yarımçıq payın yetəni...
Təkcə parçalanmış vahid Vətəni,
Sən yarımçıq deyil, bütöv ver mənə!

***

Hər xalqın mədəniyyət xəzinəsindəki ən qiymətli inci ana dilidir. Bu parlaq inci öz əlvan şəfəqlərilə xalqın coğrafi, iqtisadi, siyasi həyatının bütün yollarını işıqlandırır. Dil xalqın ən böyük, ən müqəddəs, ən nadir sərvətidir.

***

Nə olaydı insan məhrəm sözüylə
Qapalı ürəyə girə biləydi.
Nə olaydı kamal iti gözüylə
Bu gündən sabahı görə biləydi.

***

Su saflığı ilə, gül ətri ilə, üzük qaşı ilə, ulduz işığı ilə, qılınc kəsəri ilə tanınır. Dil isə ahəngi ilə, şirinliyi ilə, zənginliyi ilə, hərarəti ilə, təsiri ilə...

***

Naşılar dinlədikcə
Müdriklərin sözünü,
Hikmətin qarşısında
Unudubdur özünü...

***

... Həyatın saysız-hesabsız imtahanları vardır. Bu imtahanlar içərisində mühacirət-ayrılıq imtahanıdır. Belə ciddi imtahanda mühacirin Vətənə də, xalqa da, əqidəyə də münasibəti dönə-dönə yoxlanılır. Daha doğrusu, mühacirin ürəyində yaxşı-yaman nə varsa, hamısı onun davranışında, baxışında, söhbətində açıq-aydın duyulur. Mühacirət həm mərd, həm də namərd sifətləri doğru-düzgün əks etdirən böyük həqiqət güzgüsüdür!

Möhtəşəm Türk dünyası
Fəxrimdir, qürurumdur.
Uğuru uğurumsa,
Qüsuru qüsurumdur…
Sevinci sevincimdir,
Kədəri kədərimdir.
(“Türklər” poeması)

***

Atalar nə vaxtsa deyiblər ki, çox yemək insanı az yeməkdən də qoyur. Ancaq nədənsə bu sözləri deməyi unudublar ki, çox işləmək də insanı az işləməkdən qoyur.

***

...Ancaq heca vəzni bizim milli, doğma vəznimizdir! Bu vəzndə yazılmış şeirlər daha aydın, rəvan, sərrast olur. Sanki heca vəznində yazılmış hər şeir bir çaydır, hər misra da bu çayın bir qoludur. O həmişə çağlaya-çağlaya axır. Ancaq axarına mane ola biləcək hər şeyi də sahilə atır...

***

Mən öz sənətimdəki az-çox uğurlara görə atalar sözlərinə minnətdaram. Məna yüklü atalar sözlərində həm hikmət, həm də şeiriyyət var. Təsadüfi deyil ki, atalar sözlərinin çoxlarının sonları qafiyələnib.

***

Sənətkar var, minnətlə
Ətəklərdə qocalır,
Sənətkar var, qayğıyla
Zirvələrə ucalır...

***

Qələm var, sənətilə
Ecazkardır özü də!
Qələm var, sənətkara
Minnətdardır özü də.

***

Babalarımız hər şeyin təzəsi, dostun köhnəsi demişlər. Lakin qədim poeziyamız unudulmaz əcdadlarımızın köhnə dostu olsa da, müqəddəs ulularımız hər

yaranan şeirdən təzə fikir, duyğu, məna ummuşlar. Bizim yeni ruhlu demokratik poeziyamız müasirlərimizin qapısını köhnə dost məhəbbətilə açır, təzə sovqatlar gətirirdi. Bu təzə sovqatlar təzələnmiş insanların təzə düşüncələri, arzuları, əməlləri ilə naxışlanmış təzə misralar idi!

***

Azərbaycan nədir? Bir coşqun ümman,
Zəfər nəğməsi tək gurlayacaqdır.
Köksünü nə qədər döysə də tufan,
Hər büllur dalğası parlayacaqdır,
Zəfər nəğməsi tək gurlayacaqdır.

***

Dost! Tərcümeyi-hal soruşma məndən,
Sanma sevinclərim, əzablarımdır.
Tərcümeyi-halım, nə danım səndən,
İrili-xırdalı kitablarımdır...

***

Mən öz qardaşıma mehman gələndə,
Bir qələm, bir dəftər, bir can gətirdim.

***

Mən öz qardaşıma mehman gələndə,
Bir qələm, bir dəftər, bir can gətirdim.
Dağların döşünü toplar dələndə,
Bir ləkə düşməyən vicdan gətirdim.

***

Dedim şeirin harda çıxsa da, şair,
Sən nə xəyala düş, nə də ki, dərdə.
Od külün içindən baxsa da, şair,
Yenə parlayacaq yandığı yerdə.